***Hikmət Ziya***

***Xocalı müsibəti***

Günəş, necə yanırsan,
Necə işıqlanırsan?!
Yer, niyə dolanırsan?!
Dayanıb, sükutla dur
Dərk et bu fəlakəti
Görünməz müsibətdir,
Xocalı müsibəti!

Millətim, Cavanşirtək
Ardınca min alay çək!
Göylər, gurla, haray çək!
- Gərək bütün bəşərin
Bu gün əyilə qəddi!
İnsanlığa ləkədir
Xocalı müsibəti!

Çaylar, dənizlərinlə!
Baş çəksən min-min ilə,
Tarix görməyib hələ
Belə ağır dəhşəti.
Tarixin göz dağıdır
Xocalı müsibəti!

Yerdə qalsa belə qan,
Əl üzülər dünyadan!
Məğrur dur azərbaycan!
Cəzasız qalmayacaq
Törədən cinayəti!
Dəhşətlər dəhşətidir
Xocalı müsibəti!

***Ziya H. Xocalı müsibəti : şeir // Savalan. – 1992. – 5 mart.***